**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№369/4** **04 noyabr 2024-cü il**

**Auditorlar Palatasında 2024-cü il ərzində sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2024-cü il üzrə iş planının 10.8-ci "Sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə Auditorlar Palatasının Aparatı (Q.Bayramov, F.Kamalova) tərəfindən Auditorlar Palatasında 2024-cü il ərzində sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması barədə təqdim edilmiş hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasında 2024-cü il ərzində sorğuların keçirilməsi və onların nəticələrinə dair tövsiyələrin hazırlanması barədə hesabat bəyənilsin (əlavə olunur).

2. Auditorlar Palatası sədrinin 2024-cü il 13 fevral tarixində təsdiq etdiyi qrafikə uyğun olaraq sorğuların vaxtında və yüksək keyfiyyətlə keçirilməsi, onların nəticələrinin təhlili və tövsiyələrin hazırlanmasına məsul olan şəxslərin (Q.Bayramov, B.Orucov, Z.Almazov) işləri müsbət qiymətləndirilsin və onlara təşəkkür elan edilsin.

3. Məsul icraçılara tapşırılsın ki, Palata sədrinin 2024-cü il 10 iyul tarixli 1/24 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Auditor xidmətinin istifadəçiləri və ictimaiyyət arasında auditin səmərəliliyi, rolu və əhəmiyyətinə dair aparılmış sosioloji sorğunun nəticələrinin tətbiqi ilə bağlı Tədbirlər Planı"nın:

3.1. 4-cü "Auditorların Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinin (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) tələblərinə düzgün riayət edilməsinə dair seminarın keçirilməsi" (məsul içraçılar: N.Talıbov, N.Abbaslı; təşkil edilməsi: Q.Bayramov, F.Kamalova, Z.Almazov) bəndinin icrasını cari ilin dekabr ayı ərzində təmin etsinlər;

3.2. 15-ci "Audit sahəsinə universitet tələbələrinin cəlb edilməsinə dair müvafiq tədbirlərin həyata keçirilməsi" (N.Talıbov, E.Behbudova, İ.Süleyman) bəndinin icrasını qısa müddət ərzində təmin etsinlər.

4. Məsul icraçılara tapşırılsın ki, Palata sədrinin 2024-cü il 15 oktyabr tarixli 10-1/3-8-1/2024 nömrəli sərəncamı ilə təsdiq edilmiş "Auditor xidməti bazarında haqsız rəqabətə qarşı mübarizəyə dair Auditorlar Palatasının üzvləri arasında aparılmış sosioloji sorğunun nəticələrinin tətbiqi ilə bağlı Tədbirlər Planı"nın:

4.1. 4-cü "Keyfiyyətə nəzarətin gücləndirilməsi və keyfiyyətə nəzarət üzrə müfəttişlərin peşə səviyyəsinin artırılması üçün xüsusi kursların təşkil edilməsi" (B.Orucov, E.Əliyev) bəndlərinin icrasını müntəzəm olaraq təmin etsinlər;

4.2. 9-cu "Auditorun şəxsi kabineti sistemində auditorlar tərəfindən əlaqəli xidmətlərin maliyyə hesabatlarının auditi (MHA) kimi qeyd edilməsinin yolverilməz olduğunu bildirərək onlara nəzarət edilməsi" (R.Cəfərli, Z.Almazov) bəndlərinin icrasını müntəzəm olaraq təmin etsinlər.

5. Auditorlar Palatasının üzvləri olan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki, Auditorlar Palatası tərəfindən keçirilən sorğularda fəal iştirak etsinlər.

6. Palata sədrinin müşaviri F.Qarayevə, sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova və Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki, iki həftə müddətində "Auditorlar Palatasının üzvləri arasında Palata tərəfindən keçirilən ixtisasartırma kursları, dəyirmi masalar, seminarlar, vebinarlar, ustad dərslərinə və xarici təcrübənin tətbiqinə dair keçirilmiş sorğunun nəticələrini təhlil edərək verilmiş təklif və tövsiyələr əsasında tədbirlər planının layihəsini hazırlayıb Palatanın rəhbərliyinə təqdim etsinlər.

7. Bu qərarın və hesabatın mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Şuranın sədri** **Vahid Novruzov**